Azərbaycan Respublikasının
Mədəniyyət və Turizm Naziri
cənab Əbülfəs Qarayevə

Hörmətli Cənab Nazir!

Bu günlərdə «Pir Hüseyn Xanəgahı» abidəsinin bərpasının başa çatması ilə əlaqədar keçirilən açılış mərasimi Hacıqabul rayon ictimaiyyətinin, o cümlədən biz mədəniyyət işçilərinin əziz bayramına çevrildi. Mərasimin möhtəşəmliyi, iştirakçıların bayram əhval-ruhiyyəsi bütün Hacıqabul sakinlərinin, biz mədəniyyət işçilərinin böyük sevincinə səbəb oldu.

Cənab Nazir!

Bu sizin Azərbaycan mədəniyyətini dünyaya tanıtmaq üçün məqsədyönlü fəaliyyətinizin bariz nümunəsidir. Tariximizə, keçmişimizə dövlət qayğısı həmin gün özünü parlaq surətdə göstərdi.

Hörmətli Cənab Nazir!

Bütün bunlara görə şəxsən Sizə, nazir müavini Ədalət Vəliyev cənablarına, nazirliyin Mədəni İrs Şöbəsinin müdiri Rizvan Bayramova, 5 saylı Masallı Elmi Bərpa İstehsalat İdarəsinin rəisi Mətləb Məmmədova və onun kollektivinə, ümumiyyətlə abidənin bərpasında yaxından iştirak edən bütün insanlara dərin təşəkkürümüzü bildiririk.

Dərin hörmətlə,
Hacıqabul rayon sakinləri və
mədəniyyət işçiləri adından
Mədəniyyət və Turizm
Şöbəsinin müdiri
Rahib MƏMMƏDOV

# Hacıqabulun
## mədəniyyət bayramı



***Şirvanda sufiliyin ideoloji mərkəzi sayılan, XI-XIV əsrlərin nadir sənət incisi Pir Hüseyn Xanəgahı Tarix-Memarlıq Qoruğunun həyatində böyük bir bayram əhval-ruhiyyəsi, müxtəlif təbəqələri əhatə edən izdiham var. Bu bayram əhval-ruhiyyəsi Pir Hüseyn Xanəgahının bərpadan sonra açılış mərasimilə bağlıdır.***

Mərasimdə Azərbaycan Respublikasının Mədəniyyət və Turizm naziri Əbülfəs Qarayev başda olmaqla nazirliyin bir qrup əməkdaşı, MEA-nın görkəmli akademikləri, dövlət rəsmiləri, Dünya Azərbaycanlıları Konqresinin Rusiya təmsilçiliyinin nümayəndələri, bir çox ölkə səfirliklərinin əməkdaşları, Hacıqabul rayonunun Bakı şəhərində yaşayan ziyalıları, 40-dan çox özəl turist şirkətinin nümayəndələri, Hacıqabul Rayon İcra Hakimiyyətinin başçısı Əhməd Muxtarovun rəhbərliyi ilə rayon ziyalıları, ictimaiyyəti iştirak edirlər.

Şirvandan olan 400 xanəgahdan ən əzəmətlisi Bakının 127 km-də, Pirsaat çayının sahilində, Bakı-Salyan ticarət yolunun üzərində yerləşən Pir Hüseyn Xanəgahıdır.

Şeyx Pir Hüseyn adıyla şöhrət tapmış Əli Hüseyn İbn Əli Xanəgah kitabələrində əzəmətli, görkəmli Pir, sufilikdə üçüncü dərəcə (Əl-Salik), müqəddəslərin görkəmlisi, ruhani işlərilə məşğul olan, imam ləqəb və sifət dərəcələri ilə qeyd edilmişdir ki, bu da onun əsrinin ən nü-

fuzlu şəxsiyyəti olduğunu göstərir.

Hündür bürclü divarlarla əhatə edilmiş Xanəgah kompleksinin memarlıq abidələri orta əsr əzəmətini bu gün belə saxlamışdır. Abidənin üzərində XIII-XIV əsrlərə aid daş kitabələr indi də qalmaqdadır. *Xanəgah kompleksinə orta əsr Şirvan-Abşeron memarlığının ən nadir əsərlərindən sayılan türbə, məscid, karvansaray və yardımçı tikililər daxildir.*

Pir Hüseyn Xanəgahı



**Xanəgah abidələri kompleksi Pir Hüseynin məzarı ətrafında yerləşmişdir. Xanəgah tikililərinin çoxunun əsası Şirvanşah Gərşabın oğlu Fərbuz və II Əxistanın oğlu II Gərşabın vaxtında qoyulmuşdur. Xanəgahı dünyada şöhrətləndirən al-əlvan yazılı-naxışlı kaşı bəzəkləri olmuşdur. Məşhur şərqşünas alim V.A. Kraçkovskaya yazırdı: «Dünyada Pir Hüseyn türbəsinin kaşı bəzəkləri ilə ancaq Məşhəddə İmam Rza məqbərəsi rəqabət edə bilər.»**

Təəssüf ki, mənfur qonşularımızın bəd əməlləri sayəsində məqbərənin kaşıları bu gün dünya muzeylərini bəzəməkdədir. Peterburq Dövlət Ermitajında, Gürcüstan Dövlət Muzeyində, Moskva Şərq Mədəniyyəti Muzeyində, Fransanın Luvr, Britaniyanın və başqa ölkələrin muzeylərində nümayiş etdirilir.

Rus işğalından sonra, eləcə də sovet dönəmində xanəgah baxımsızlığa məruz qalmışdır. Xüsusilə Pirsaat su anbarının inşasından sonra bu nadir abidənin divarları nəm çəkməyə başlamış, məhvə məhkum olmuşdur.

Rayon ziyalılarının və mədəniyyət şöbəsinin müraciətindən sonra 2003-cü ildə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi tərəfindən xanəgahda bərpa işləri başlanmışdır.

2004-cü ildə Pir Hüseyn Xanəgahı Tarix-Memarlıq Qoruğunun yaradılması bu unikal abidəyə marağı daha da artırmışdır. Elə açılış mərasimində çıxış edən Azərbaycan Respublikasının Mədəniyyət və Turizm naziri Əbülfəs Qarayev məhz bu məqamı önə çəkmişdir: «Mən inanıram ki, XI əsrə aid bu mədəni sərvətimiz yaşadığımız əsrdə öz yeni həyatına başlayacaqdır.» Mərasimdə iştirak edən Hacıqabul Rayon İcra Hakimiyyətinin başçısı Əhməd Muxtarov xanəgahda görülən bərpa işlərinə görə Mədəniyyət və Turizm Nazirliyinə hacıqabullular adından təşəkkür etdi. O qeyd etdi ki, Hacıqabul İpək Yolu üzərində qədim yaşayış məskənidir. Burada dövlət tərəfindən qeydə alınmış 14 tarixi abidə var. Biz öz keçmişimizi qoruyur və onunla fəxr edirik.

**Mərasimdə çıxış edən görkəmli alim Məşədixanım Nemət xanəgah haqqında, Pir Hüseyn Şirvani haqqında ətraflı məlumat verdi. Ən maraqlı çıxışlardan biri də Rusiya Prezidenti nəzdində Dövlət Xidməti Akademiyasının doktoru, islamşünas alim Qasım Kərimova məxsusdur. O, DAK-ın Rusiya təmsilçiliyinin səmimi salamlarını mərasim iştirakçılarına yetirdi. Moskvada yaşayan həmyerlilərimizin Azərbaycandakı hadisələri diqqətlə izlədiyini bildirdi.**

**Sonra nazir Əbülfəs Qarayev kompleksə daxil olmaq üçün qırmızı lenti kəsdi. Qoruğun direktoru Mübariz Xəlilov Xanəgah kompleksi haqqında qonaqlara məlumat verdi.**

Xanəgahın həyətində «Əhli-Beyt» qrupunun ifasında musiqilər, sufi qəzəlləri səsləndi.

İnanırıq ki, bir gün gələcək, Pir Hüseyn Xanəgahı Tarix-Memarlıq Qoruğu dünya mədəni irsi siyahısında özünə layiqli yer tutacaqdır.

**Mübariz XƏLİLOV,**
**Pir Hüseyn Xanəgahı**
**Tarix-Memarlıq Qoruğunun direktoru**
Hacıqabul